# BAKI ŞƏHƏR MƏDƏNİYYƏT VƏ TURİZM BAŞ İDARƏSİNİN STRUKTURU:

## I. RƏHBƏRLİK

**Baş İdarənin rəisi - Vuqar Teyyub oğlu Zeynalov**

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Bakı şəhər İcra Hakimiyyətinin birgə qərarına əsasən, 2015-ci ilin 28 dekabr tarixindən etibarən Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi vəzifəsinə təyin olunmuşdur.
Vuqar Zeynalov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və Bələdiyyə idarəetməsi fakültəsinin məzunudur. Müxtəlif dövrlər ərzində o, özəl şirkətdə hüquqşünas, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Azərbaycan ədəbiyyat muzeyində baş mütəxəssis, Azərbaycan Milli Elmlər Akademiyasının "Akademiya" kitab mərkəzində direktor, Azərbaycan Dövlət İncəsənət muzeyində Muzey işində innovasiyaların tətbiqi şöbəsinin müdiri, muzeyin direktor müavini, Azərbaycan Diplomatiya Akademiyasının (ADA) Kitab Mərkəzində direktor vəzifəsində çalışmışdır. 2012-ci ildən etibarən Nizami Kino Mərkəzinin direktoru vəzifəsində işləmişdir.
Ailəlidir, bir övladı var.

**Baş İdarənin rəis müavini - Gülnarə Mirtağı qızı Seyidova**

1969-cu ildə Naxçıvan şəhər, Şərur rayon Dizə kəndində anadan olub.
Bakı Dövlət Universitetinin biologiya fakültəsini bitirib. 2009-cu ilin sentyabr ayından sektor müdiri vəzifəsində, 2013-cü ilin sentyabrından Mədəniyyət siyasəti sektorunun müdiri vəzifəsində işləmişdir.
2015-ci ilin mart ayından Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsində rəis müavini vəzifısində çalışır.
Ailəlidir, iki övladı var.

**Baş İdarənin rəis müavini - Nazim Novruz oğlu Əliyev**

1966-cı ildə Bakı şəhərində anadan olmuşdur.
1990-ci ildə Azərbaycan Politexnik İnstitunun mühəndis mexanik fakültəsini, 2007-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirib.
2014-cü ilin sentyabr ayından Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsində rəis müavini vəzifəsində çalışır.
Ailəlidir, üç övladı var.

## II. MƏDƏNİYYƏT SİYASƏTİ SEKTORU:

**Sektor müdiri – Səbinə Müzəffər qızı Məmmədova**

1972-ci ildə Naxçıvan şəhərində anadan olub.
Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunu bitirib. 2005-ci ildən Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsində işə başlayıb, 2013-cü ilin sentyabr ayından Mədəniyyət siyasəti sektorunun baş məsləhətçisi vəzifəsində, 2015-ci ilin avqust ayından Mədəniyyət siyasəti sektorunun müdiri vəzifəsində çalışır.
Ailəlidir, iki övladı var.

**Baş məsləhətçi - Sücayət Zakir qızı Piriyeva**

1986-cı ildə Bakı şəhərində anadan olub. 2006-cı ildə Asəf Zeynallı adına Musiqi Kollecinin kamança ixtisasını, 2010-cu ildə Azərbaycan Milli Konservatoriyasının Musiqişünaslıq fakültəsini fərqlənmə diplomu ilə, 2013-cü ildə isə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasını Musiqişünasliq ixtisası üzrə magistr pilləsini fərqlənmə diplomu ilə bitirmişdir. 2016-cı ilin iyul ayı tarixindən Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsində Mədəniyyət siyasəti sektorunda baş məsləhətçi vəzifəsində çalışır. Subaydır.

**Aparıcı məsləhətçi - Tomris Xıdırnəbi qızı Hacıyeva**

1986-cı ildə Gürcüstan Respublikasının Bolnisi rayonunda anadan olub.
2008-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin ədəbi yaradıcılıq və ekran dramaturgiyası fakültəsini bitirib. 2009-cu ilin mart ayından Bakı şəhər Mədəniyyət və Turizm İdarəsində muzeylər üzrə məsləhətçi vəzifəsində, 2013-cü ilin sentyabrından Mədəniyyət siyasəti sektorunun aparıcı məsləhətçisi vəzifəsində çalışır. Subaydır.

**Aparıcı məsləhətçi - Vüsal Firudin oğlu Həsənov**

1984-cü ildə Tovuz rayonunda anadan olub.
2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının siyasi idarəetmə fakültəsini , 2008-ci ildə isə həmin akademiyanın magistr pilləsini bitirib. 2012-ci ildən Bakı şəhər Mədəniyyət və Turizm İdarəsində məsləhətçi vəzifəsində, 2013- cü ilin sentyabrından isə Mədəniyyət siyasəti sektorunun aparıcı məsləhətçisi vəzifəsində çalışır.
Ailəlidir, bir övladı var.

## III. MUSİQİ TƏHSİLİ VƏ İNCƏSƏNƏT SEKTORU

**Sektor müdiri - Bətulə Ədhəm qızı Məmmədəliyeva**

1959-cu ildə Naxçıvan şəhərində anadan olub.
1979-cu ildə Azərbaycan Dövlət Konservatoriyasını fortepiano ixtisası üzrə bitirib. 2013 -cü ilin noyabrından Musiqi təhsili və incəsənət sektorunun müdiri vəzifəsində çalışır.
Subaydır ,üç övladı var.

**Baş məsləhətçi - Mehriban Nizami qızı Qurbanova**

1978-ci ildə Gürcüstan Respublikasının Marneuli şəhərində anadan olub.
2002-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib. 2011-ci ilin noyabr ayından Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsində Musiqi təhsili və incəsənət sektorunun məsləhətçisi vəzifəsində, 2013-cü ilin sentyabrından Musiqi təhsili və incəsənət sektorunun baş məsləhətçisi vəzifəsində çalışır.
Ailəlidir, iki övladı var.

## IV. MALİYYƏ VƏ İQTİSADİYYAT SEKTORU

**Sektor müdiri - Bəsirət Havadar qızı Cəfərova**

1981-ci ildə Bakı şəhərində anadan olub.
Azərbaycan Dövlət İqtisad Universitetinin Əmtəəşünaslıq fakültəsini bitirib. 2016-cı ilin 12 fevral tarixindən Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsində sektor müdiri vəzifəsində çalışır.
Ailəlidir, bir övladı var.

**Baş məsləhətçi - Ülvi Əmiraslan oğlu Məcidov**

1988-ci ildə Ucar rayonunun Bərgüşad kəndində anadan olub.
2009-cu ildə Azərbaycan Kooperasiya Universitetinin inzibati idarəetmə fakültəsini bitirib. 2013-cü il aprel ayından Bakı şəhər Mədəniyyət və Turizm İdarəsində Mühasibat uçotu və hesabat işləri sektorunda baş məsləhətçis-iqtisadçı vəzifəsində, 2013-cü ilin sentyabrından Maliyyə və iqtisadiyyat sektorunun baş məsləhətçisi-iqtisadçı vəzifəsində çalışır.
Subaydır.

**Baş məsləhətçi-mühasib - Turqay Tahir oğlu Budaqov**

1993-cü ildə Bakı şəhərində anadan olub.
2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə fakültəsini bitirib. 24 avqust 2016-cı il tarixindən Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin Maliyyə və iqtisadiyyat sektorunda baş məsləhətçi- mühasib vəzifəsində çalışır.
Subaydır.

## V. ÜMUMİ SEKTOR

**Sektor müdiri - Suğra Tərlan qızı Məmmədova**

1977-ci ildə Bakı şəhərində anadan olub.
2002-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin mədəni fəaliyyətin təşkilatçısı fakültəsini bitirmişdir. 2013-cü ilin dekabrından Ümumi sektorun müdiri vəzifəsində çalışır.
Subaydır.

**Böyük mütəxəssis – makinaçı - Fidan Hüseyn Ağa qızı Allahverdiyeva**

1986-cı ildə Bakı şəhərində anadan olub.
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kino-televiziya və konsert işləri üzrə prodüser fakültəsini bitirib. 2016-cı il tarixindən Bakı şəhər Mədəniyyət və Turizm İdarəsində böyük mütəxəssis-makinaçı vəzifəsində çalışır.
Ailəlidir.

## VI. İNFORMASİYA VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR SEKTORU

**Sektor müdiri - Pərvanə Salman qızı Muradzadə**

1983-cü ildə Bakı şəhərində anadan olub.
2004-cü ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 2014-cü ilin aprel ayından İnformasiya və İctimaiyyətlə əlaqələr sektorunun müdiri vəzifəsində çalışır.
Ailəlidir, iki övladı var.

**Baş məsləhətçi - Günel Həsən qızı Əhmədova**

1989-cu ildə Sumqayıt şəhərində anadan olub.
2012-ci ildə Bakı Biznes Universitetinin Dilşünaslıq fakültəsini, 2014-cü ildə Azərbaycan Dillər Universitetinin Dilşünaslıq fakültəsi üzrə magistr pilləsini bitirib. 2014-cü ilin aprel ayından İnformasiya və İctimaiyyətlə əlaqələr sektorunun baş məsləhətçisi vəzifəsində çalışır.
Subaydır.

**Aparıcı məsləhətçi - Günay Şöhrət qızı Əliyeva**

1991-ci ildə Bakı şəhərində anadan olub.
2013-cü ildə Azərbaycan Dillər Universitetinin Beynəlxalq Münasibətlər fakültəsini bitirib. 2014-cü ilin aprel ayından İnformasiya və İctimaiyyətlə əlaqələr sektorunun aparıcı məsləhətçisi vəzifəsində çalışır.
Ailəlidir.

## VII. BEYNƏXALQ ƏLAQƏLƏR SEKTORU

**Sektor müdiri - Ülkər Adil qızı Mütəllimova**

1990-cı ildə Bakı şəhərində anadan olub.
M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının bakalavr və magistr pilləsinin filologiya ixtisası üzrə bitirib. Hal-hazırda Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər fakültəsində təhsilini davam etdirir. 2016-cı ilin fevral ayından Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsində sektor müdiri vəzifəsində çalışır.
Subaydır.

**Aparıcı məsləhətçi - Gülnar Əliheydər qızı Məlikova**

1985-ci ildə Zəngilan rayonunda anadan olub.
2008-ci ildə Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər fakültəsini, 2011-ci ildə isə həmin fakültənin magistr pilləsini bitirib. 2014-cü ilin aprel ayından Beynəlxalq Əlaqələr sektorunun aparıcı məsləhətçisi vəzifəsində çalışır.
Ailəlidir, iki övladı var.

**Baş məsləhətçi, hüquqşünas - Fəxriyyə Bəhlul qızı Zeynallı**

1992-ci ildə Naxçıvan şəhərinin Şərur rayonun Alışar kəndində anadan olub.
2013-cü ildə Bakı Dövlət Universitetinin hüquq ixtisası üzrə bitirib. 2014-cü ilin oktyabr ayından Beynəlxalq Əlaqələr sektorunun baş məsləhətçi, hüquqşünas vəzifəsində işləyir.
Ailəlidir, bir övladı var.

## VIII. İŞLƏR SEKTORU

**Sektor müdiri - Aynur Şahin qızı Qasımova**

1987-ci ildə Sabirabad şəhərində anadan olub.
2009-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix, 2011-ci ildə həmin universitetin Avropa və Amerika ölkələrinin yeni və ən yeni tarixi ixtisası üzrə magistr pilləsini bitirib.Hal-hazırda Bakı Dövlət Universitetində Ölkələr tarixi istiqaməti üzrə qiyabi doktoranturada təhsil alır. 2014-cü ilin oktyabr ayından Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin İşlər sektorunun müdiri vəzifəsində çalışır.
Subaydır.

**Böyük mütəxəssis-təsərrüfat üzrə müdir - Sərdar Abdulla oğlu Bağırov**

1953-cü ildə Naxçıvan şəhərində anadan olub.
1987-ci ildə Naxçıvan Politexnik Texnikumunu bitirib. 2009-cu ilin iyun ayından Bakı şəhər Mədəniyyət və Turizm İdarəsində böyük mütəxəssis - təsərrüfat üzrə müdir vəzifəsində çalışır.
Ailəlidir, iki övladı var.

**Kadrlar üzrə baş məsləhətçi - Təranə Telman qızı Həsənova**

1985-ci ildə Bakı şəhərində anadan olub.
2007-ci ildə Qərb Universitetinin politologiya fakültəsini, 2010-cu ildə isə Qərb Univesitetinin MBA proqramı üzrə beynəlxalq iqtisadi münasibətlər fakültəsinin magistr pilləsini bitirib. 2009-cu ilin sentyabrından Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsində kadrlar üzrə məsləhətçi vəzifəsində, 2013-cü ilin sentyabrından kadrlar üzrə baş məsləhətçi vəzifəsində çalışır.
Ailəlidir. Bir övladı var.

**Baş məsləhətçi-mühəndis - Nərmin Mərdan qızı Əliyeva**

1988-ci ildə Rusiya Federasiyasının Arxangelsk şəhərində anadan olub.
2009-cu ildə Bakı Dövlət Universitetinin Mexanika-Riyaziyyat fakültəsini bitirib. 2012-ci ildə Azərbaycan Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsində magistr pilllәsini bitirib. 2010-cu ilin avqust ayından Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsində məsləhətçi-mühəndis vəzifəsində, 2013-cü ilin sentyabrından baş məsləhətçi-mühəndis vəzifəsində çalışır.
Ailəlidir, iki övladı var.